XALQ QƏZETİ 27 fevral 2018-ci il, çərşənbə axşamı

# Ali Attestasiya Komissiyasında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

***Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.***

Komissiyadan bildiriblər ki, əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) sədri əvəzi, AAK sədrinin müavini Vəli Hüseynov Xocalı soyqırımının erməni təcavüzkarları tərəfindən XX əsrin sonlarında Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğulayıb. V.Hüseynov Xocalı faciəsinin bəşər tarixində bu vaxtadək insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu qeyd edib, bu qətliamın ən qəddar və amansız terror hadisələrindən biri və xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb.

AAK sədri əvəzi 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalını mühasirəyə alıb onun dinc əhalisinə amansızcasına divan tutmasından və Xocalı şəhərini yerlə-yeksan etməsindən bəhs edib. Xocalıya hücum nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 70 qoca və 63 uşaq xüsusi qəddarlıqla qətlə yetirilib, 487 nəfər yaralanıb və şikəst olub, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb. 150 nəfərin taleyi hələ də məlum deyil. Xocalı soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilib, 27 ailənin yalnız 1 üzvü qalıb, 25 uşaq hər iki valideynini itirib.

V.Hüseynov ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması istiqamətində məqsədyönlü və ardıcıl addımlar atdığını, Heydər Əliyev Fondunun xətti ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində hər il dünyanın müxtəlif ölkələrində silsilə tədbirlərin həyata keçirildiyini qeyd edib.

Tədbirdə çıxış edən AAK-ın şöbə müdirləri Arif Ələkbərov, Rəfail Əhmədli və hüquqşünas Fazil Nəsibov erməni təcavüzkarlarının Xocalıda törətdiyi bu soyqırımının ən qəddar və amansız terror hadisəsi olduğundan və Xocalı faciəsinin törədilmə səbəblərindən və acı nəticələrindən bəhs ediblər.

**AZƏRTAC**

# Ali Attestasiya Komissiyasında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

**Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.**

Komissiyadan AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) sədri əvəzi, AAK sədrinin müavini Vəli Hüseynov Xocalı soyqırımının erməni təcavüzkarları tərəfindən XX əsrin sonlarında Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu vurğulayıb. V.Hüseynov Xocalı faciəsinin bəşər tarixində bu vaxtadək insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri olduğunu qeyd edib, bu qətliamın ən qəddar və amansız terror hadisələrindən biri və xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırıb.

AAK sədri əvəzi 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin keçmiş sovet ordusunun 366-cı motoatıcı hərbi alayının köməyi ilə Xocalını mühasirəyə alıb onun dinc əhalisinə amansızcasına divan tutmasından və Xocalı şəhərini yerlə-yeksan etməsindən bəhs edib. Xocalıya hücum nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 70 qoca və 63 uşaq xüsusi qəddarlıqla qətlə yetirilib, 487 nəfər yaralanıb və şikəst olub, 1275 nəfər girov götürülüb və insanı alçaldan işgəncələrə məruz qalıb. 150 nəfərin taleyi hələ də məlum deyil. Xocalı soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilib, 27 ailənin yalnız 1 üzvü qalıb, 25 uşaq hər iki valideynini itirib.

V.Hüseynov ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Xocalı soyqırımına hüquqi-siyasi qiymət verildiyini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırımı kimi tanınması istiqamətində məqsədyönlü və ardıcıl addımlar atdığını, Heydər Əliyev Fondunun xətti ilə "Xocalıya ədalət!" kampaniyası çərçivəsində hər il dünyanın müxtəlif ölkələrində silsilə tədbirlərin həyata keçirildiyini qeyd edib.

Tədbirdə çıxış edən AAK-ın şöbə müdirləri Arif Ələkbərov, Rəfail Əhmədli və hüquqşünas Fazil Nəsibov erməni təcavüzkarlarının Xocalıda törətdiyi bu soyqırımının ən qəddar və amansız terror hadisəsi olduğundan və Xocalı faciəsinin törədilmə səbəblərindən və acı nəticələrindən bəhs ediblər.

**AZƏRTAC**